

**Dövlət o zaman məhvə yuvarlanır ki, onun gələcək taleyi haqqında fikir və ideyalar tükənir. Nə yaxşı ki, müstəqil dövlətimiz bu təhlükədən birdəfəlik xilas edilib.**

# LİDER

Çünki Azərbaycanın gələcək taleyi üçün nəinki fikirlər, ideyalar mövcuddur, həm də ümummilli lider tərəfindən işlənib hazırlanan, ölkənin intibahının sabit iqtisadi, siyasi, sosial yüksəlişini, onun dünyaya inteqrasiyasını təmin edən strateji xətt, prinsiplər mövcuddur.

Bu səbəbdən də Azərbaycan Respublikası mümkün ola biləcək ən sərt sınaqlara baxmayaraq zamanın özü ilə birlikdə daim addımlayacaq. Böyük öndər müstəqil Azərbaycan dövlətinin özülünü elə möhkəm qoymuşdur ki, onun üzərində tikilən möhtəşəm bina daim var olacaqdır.

Azərbaycanın real müstəqilliyinin təminatçısının öz sözləri ilə desək, bundan sonra heç bir qüvvə Azərbaycan xalqının tarixi nailiyyəti olan müstəqilliyinə qəsd edə bilməz. Artıq ölkəmiz hüquqi demokratik dövlət quruculuğu yolunda, insan və vətəndaş azadlığı, demokratik iqtisadiyyat sahəsində postsovet məkanında mövcud olan respublikalar üçün nümunədir. Azərbaycan xalqı və dövləti bu nailiyyətləri günbəgün zənginləşdirir. Ona görə ki, Heydər Əliyev strategiyası Prezident İlham Əliyev tərəfindən dönmədən, ardıcıllıqla, yeni dünya nizamına uyğun formada həyata keçirilir. Dövlət başçısı Azərbaycanın ən böyük milli nemətı olan Heydər Əliyev dühasından, onun miqyasagəlməz siyasi və dövlətçilik təcrübəsindən qədərincə bəhrələnərək Azərbaycanı dünya üçün yenidən açır.

XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət, əsrin sonunda tarixi torpaqlarımızın bir hissəsində - Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli istiqlal bayrağı başımız üzərində yenidən dalğalandı.

Azərbaycanımız yenidən siyasi varlığa çevrildi. Dünya xəritəsində Azərbaycan Respublikası adlanan dövlətimizin öz yeri, öz payı var. Müstəqilliyimizə qənim kəsilən xarici düşmənlərin və onların daxildəki əlaltılarının bitib - tükənməyən məkr, hiylə və qəsdlərinə baxmayaraq Azərbaycan dövləti artıq neçə onilliklərdir ki, yaşayır. Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğundakı uğurlarımız göz qabağındadır. Bu gün hamımız bir inamla yaşayırıq: müstəqilliyimizə zaval yoxdur, dövlətimiz əbədiyyətə qədər yaşayacaqdır! Bu həqiqəti, bu reallığı, bu səadəti doğma xalqına məhz Heydər Əliyev bəxş etmişdir!

Azadlıq, müstəqil dövlət halında yaşamaq hər bir xalqdan ötrü, o cümlədən bizim xalqımız üçün ən bö-

yük xoşbəxtlikdir, misilsiz nemətdir. Çünki dövləti olmayan xalq məhvə məhkumdur.

Məhz buna görə də qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna - Heydər Əliyevə minnətdardır. Hər bir Vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda ulu tanrı şəxsiyyət və zaman problemini bizim xeyrimizə həll etməsəydi - xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəti olmasaydı, müstəqilliyimizi qoruyub saxlaya bilməyəcəkdik.

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində xalqımızın yetirdiyi dahi şəxsiyyətdir. O, öz xalqının bağrından qopub gələn böyük azərbaycanlı idi, öz yurdunun, doğma torpağının misilsiz təəssübkeşi idi. Heydər Əliyev öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir.

Heydər Əliyevin son 10 ildə gördüyü işlər hamımızın gözü qarşısındadır. 1993 - cü ildə Heydər Əliyevsiz Azərbaycan ilk öncə inamını, sonra səlahiyyətini, daha sonra isə torpaqlarını itirmiş oldu.

15 iyun 1993 - cü il ona görə "Qurtuluş günü" adlanır ki, bu gündən başlayaraq Azərbaycan itən inamını və səlahiyyətini özünə qaytardı. Onun qurduğu müstəqil Azərbaycan dövləti beynəlxalq aləmdə böyük nüfuza malikdir. Heydər Əliyev əsil liderə məxsus keyfiyyətlərdən istifadə edərək respublika hökumətini formalaşdırdı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi - iqtisadi xüsusiyyətlərinə, xalqın mentalitetinə, geopolitik şəraitinə, milli mənafeyinə uyğun inkişaf strategiyası hazırladı, beynəlxalq təşkilatlar, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi.

**Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır.**

**MÜJKAN MƏMMƏDZADƏ,**
***Mədəniyyətşünaslıq üzrə EMM-in metodisti, ABU-nun baş müəllimi***